**UOT 327**

# İRAN-RUSİYA MÜNASİBƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNƏ ƏSAS KONSEPTUAL YANAŞMALARIN ÜMUMİ XARAKTERİSTİKASI

**Əlimusa İBRAHİMOV***

***Açar sözlər:*** *İran, Rusiya, ABŞ, konsepsiya, nəzəriyyə*

Rusiya ilə İran arasındakı münasibətləri təhlil edərkən müvafiq beynəlxalq münasibətlər nəzəriyyəsi seçmək çox çətindir. Rusiya və İran arasındakı ikitərəfli münasibətlərin müxtəlif aspektlərini tam izah edə biləcək nəzəriyyə yoxdur. Lakin biz bu ikitərəfli əlaqələri beynəlxalq münasibətlərin üç nəzəriyyəsi kontekstində nəzərdən keçirməyi düzgün hesab edirik: neorealizm, liberalizm və konstruktivizm.

Qeyd edilən yanaşmalar beynəlxalq münasibətlərin mahiyyətinə fərqli baxışları təmsil edir. Qərb ölkələri davamlı şəkildə vurğulayır ki, İran-Rusiya münasibətləri dünyanın təhlükəsizliyini təhdid edir. ABŞ prezidentləri Rusiya liderləri və ya digər siyasi dairələrlə ikitərəfli dialoq zamanı çox vaxt Rusiyanın köməyi ilə İranın nüvə potensialının və hərbi imkanlarını gücləndirilməsinin qlobal sülhə və təhlükəsizliyə potensial təhlükə ola biləcəyini iddia edirlər. Ekspertlər tərəfindən İran-Rusiya münasibətlərinin təhlili yalnız Rusiya ilə Qərb arasındakı makromünasibətlər çərçivəsində realizm diskursu formatında nəzərdən keçirilir.

ABŞ-ın qlobal üstünlüyü alimlərin digər ölkələrin Birləşmiş Ştatların hegemonluğuna və birtərəfli hərəkətlərinə necə reaksiya verməsinə maraq göstərməsini şərtləndirir. Bəzi ölkələr ABŞ-ın qlobal hökmranlığına qarşı mübarizə strategiyasını, digər ölkələr isə bu vəziyyətə uyğunlaşma strategiyasını seçmişlər. Şübhə yoxdur ki, ABŞ-a qarşı hərbi ittifaqın mövcud olmadığı bir şəraitdə bəzi dövlətlər ABŞ-a qarşı durmaq üçün qeyri-hərbi vasitələrdən (alətlərdən) istifadə edirlər (11).

Neorealistlər İran və Rusiya arasındakı strateji əməkdaşlığı ABŞ-dan gələn ümumi təhdid hissi və iki ölkənin bu dövlətə qarşı güc balansı yaratmaq istəyi ilə izah edirlər (3, s.61).

Kennet Uolts İran və Rusiya arasındakı münasibətləri iki ölkənin ABŞ-dan gələn təhdidə qarşı tarazlıq yaratmaq istəyi çərçivəsində təhlil edir. Uoltsa görə, SSRİ-nin dağılması ilə beynəlxalq sistem təkqütblü xarakter kəsb etmişdir, ABŞ isə digər böyük dövlətlərlə keyfiyyət göstəriciləri baxımından əhəmiyyətli üstünlüyə sahib olan yeganə fövqəldövlətə çevrilmişdir. Onun sözlərinə görə, təkqütblü beynəlxalq sistem beynəlxalq strukturun formalaşması şəraitində aşağı həyat qabiliyyətinə malikdir (12). Uolts bu fikrini iki səbəblə əsaslandırır: birincisi, dominant qüvvə onun öz sərhədlərindən kənarda üzərinə götürdüyü böyük məsuliyyətdən irəli gəlir, lakin uzunmüddətli perspektivdə o, mövqelərini itirir və zəifləyir; ikincisi, fövqəldövlət hətta mötədil və səbirli davransa belə, yenə də digər ölkələr üçün potensial təhlükə təşkil edir.

Fövqəldövlət, bir qayda olaraq, öz davranışını, ABŞ-ın etdiyi kimi, dünyada sülh, ədalət və rifah arzusu ilə izah edir, lakin bu, beynəlxalq münasibətlərdə tarazlıq yaratmağa çalışan digər dövlətlərin istək və maraqlarına ziddir. Bu görüşə əsaslanan K.Uolts hesab edir ki, beynəlxalq sistemdə qaçılmaz tarazlığın bərpası gözləniləndir. Uoltsun fikrincə, hazırda fövqəldövlət kimi çıxış etməyə namizədlər Almaniyanın rəhbərlik etdiyi Avropa koalisiyası, Çin, Yaponiya və Rusiyadır. K.Uolts habelə qeyd edir ki, 1980-ci illərin sonlarında Amerika Birləşmiş Ştatlarının hegemonluğunun başlaması, NATO-nun genişlənməsi və bu iki ölkənin daxili işlərinə müdaxiləsi nəticəsində Rusiya ilə Çin arasındakı münasibətlər möhkəmlənmişdir (12).

Uoltsun təsvir etdiyi şəraitdə İran və Rusiya arasında realizm diskursu mövqeyindən, yəni fövqəldövlət qarşısında tarazlığın bərpası zərurətindən kənara çıxmayan münasibətlər qurulmuşdur.

* *Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər fakültəsinin müəllimi*
*E-mail: ialimusa@mail.ru*

Rusiya böyük dövlət kimi ABŞ-a qarşı balans yaratmaq üçün bütün mümkün resurslardan istifadə etməyə çalışır. NATO-nun Şərqə doğru genişlənməsi, ABŞ-nın RHM-dən birtərəfli surətdə çıxması, Şərqi Avropada raketdən müdafiə sistemlərinin yerləşdirilməsi cəhdi, Yaxın Şərqdə və Orta Asiyanın digər ölkələrində yeni hərbi bazaların yaradılması ABŞ-ın "soyuq müharibə"dən sonra atdığı və əsasən Rusiyanın beynəlxalq mövqeyini sarsıtmaq məqsədi daşıyan bir sıra addımlardır (15, s.616-645).

Son illərdə, xüsusilə üç ölkənin - Rusiya, Almaniya və Fransanın ABŞ-ın 2003-cü ildə İraqa hücum etməsinə qəti etirazından sonra Stiven Uolt, Qabriel Tabarani və Robert Peyp kimi nəzəriyyəçilər realizm nəzəriyyəsini dünyada mövcud olan şəraitə uyğunlaşdırmaq məqsədi ilə güc balansı anlayışının daha geniş bir tərifini təqdim etməyə çalışmışlar. Bu nəzəriyyəçilərin fikrincə, "soyuq müharibə"dən sonrakı dövrdə böyük dövlətlər əvvəlki kimi mürəkkəb səylərə əsaslanmayan yeni növ güc balansına meyl edirlər.

Güc balansı nəzəriyyəsini yenidən nəzərdən keçirən ən önəmli realistlərdən - neoklassizmin müdafiəçilərindən biri olan Stiven Uolt "yumşaq balans" nəzəriyyəsini təklif etmişdir. Onun fikrincə, ölkələr başqaları üçün təhlükə mənbəyi olan dövlətə qarşı birləşirlər. Ölkələr başqa bir dövlətin onların mövcudluğunu və ya maraqlarını təhdid etdiyini hiss etdikdə ona əks qüvvə formalaşdırır. Stiven Uolt "yumşaq balans" konsepsiyası çərçivəsində ölkələrin ABŞ-ın hegemonluğuna qarşı hərəkət etdiyini nəzərdə tutur. "Yumşaq balans" Amerikaya onun başqa ölkələrin asılılığını aksiom kimi qiymətləndirə bilməyəcəyini xatırlatmalıdır.

Uolta görə, Rusiyanın İranla əməkdaşlığa maraq göstərməsi, Rusiya və Çinin strateji tərəfdaşlığı kimi digər meyillərlə yanaşı, bu ölkələrin ABŞ-ın gücünə qarşı "yumşaq balans" yaratmaq üçün göstərdikləri səylərin bir hissəsidir. Onun sözlərinə görə, Rusiya və İran 2000-ci ildən bəri tədricən strateji tərəfdaşlığını inkişaf etdirirlər ki, bu da ABŞ-ın Mərkəzi Asiya və Qafqazda artan təsirinə cavabdır. Uolt vurğulayır ki, İranın Rusiya ilə əməkdaşlığı ABŞ-ın Türkiyə, Gürcüstan və Azərbaycanla əməkdaşlıq yolu ilə bölgədəki nüfuzunu genişləndirmək səylərinə strateji cavabdır (10, s.15).

Beləliklə, Stiven Uoltun nəzəriyyəsinə əsasən, Rusiya və İran hökumətlərinin ABŞ-ın müəyyən strateji təhdidləri səbəbindən bir-biri ilə yaxınlaşdıqlarını və "yumşaq tarazlıq" yaratmaqla öz maraqlarını qoruduqlarını iddia etmək olar.

Siyasi elmlər üzrə professor Qabriel Tabarani də hesab edir ki, "soyuq müharibə" illərindəki sərt tarazlığın əksinə olaraq, 2003-cü ildən bəri Rusiyanın davranışı "yumşaq balans" nəzəriyyəsi baxımından daha yaxşı izah olunur. O, "yumşaq balans"ın xüsusiyyətlərini belə izah edir: silahların tədricən artması, beynəlxalq təşkilatlara təsir göstərən ölkələr arasında təhlükəsizlik barədə qeyri-rəsmi anlayışın formalaşması və təcavüzkar birtərəfli siyasəti zəiflətmək üçün qeyri-hərbi alətlərdən istifadə. Tabarani əlavə edir ki, ABŞ hərbi gücünün üstünlüyü nəzərə alınaraq, Rusiya üçün "sərt balans" yaratmaq mümkün deyil, buna görə də "yumşaq balans" Putinin praqmatik xarici siyasətinin tərkib hissəsidir. Belə yanaşma "sərt balans"dan daha təsirli olmasa da, Rusiyanın dostlarını gücləndirmək üçün daha ucuz və sadə vasitədir (9, s.320).

Amerikalı politoloq Robert Peypin fikrincə, güc balansının yeni mərhələsində Rusiya, Çin, Fransa, Almaniya və bölgənin digər əhəmiyyətli ölkələrinin ABŞ-ın hərəkətlərinə "sərt balans"la cavab verməsi ehtimalı azdır. Hər hansı bir ölkə üçün təkbaşına ABŞ-ın üstünlüyünə qarşı durmaq çox baha başa gəlir. Həmçinin əksinə, böyük dövlətlər "yumşaq balans" tədbirlərinin köməyi ilə ABŞ-a qarşı durmağa, onun birtərəfli təcavüzkar hərbi siyasətini zəiflətməyə və zərərsizləşdirməyə çalışırlar. Bu tədbirlər qısa müddətdə ABŞ-ın hərbi üstünlüyünə təsir göstərə bilən hərəkətlər olmasa da, uzunmüddətli perspektivdə hərbi gücdən istifadə xərclərinin artmasına və gələcəkdə bu ölkənin siyasətini dəstəkləyəcək ölkələrin sayının azalmasına səbəb olacaqdır (6, s.9-10). Peyp "yumşaq balans"ın hətta "sərt balans"ın bərpasına səbəb ola biləcəyinə inanır. "Bəlkə də böyük ölkələr üçün "sərt balans"ın qurulmasında ən vacib addım hərbi texnologiyaların ABŞ-a rəqib ölkələrə ötürülməsini təşviq etmək və dəstəkləmək olacaq. Daha əvvəl, ABŞ xüsusi xidmət orqanlarının fikrincə, Rusiya nüvə silahına sahib olmağa çalışan ölkəyə - İrana qeyri-hərbi nüvə texnologiyası təklif etmişdi" (6, s.9-10).

İran və Rusiya arasındakı münasibətlərin realist təhlili bir çox suallara nisbətən qənaətbəxş cavablar versə də, realist nəzəriyyə bəzi ölkələrin ikiqütblü sistem bitdikdən sonra uyğunlaşma strategiyası yerinə nəyə görə hegemon dövlətlə qarşıdurma və düşmənçilik strategiyası seçdiyini izah edə bilmir. İkincisi, bu seçimdə müəyyənedici amillər daxili rəqabət və xarici təhdidlərdirmi? Üçüncüsü, nəyə görə Rusiya "soyuq müharibə" bitdikdən və ABŞ-la düşmənçiliyin ideoloji səbəblərinin aradan qalxmasından sonra Şərqi Avropanın digər ölkələri ilə eyni yolu tutmamış və bu ittifaqdan yararlanmaq əvəzinə, beynəlxalq sistemdəki yeri üçün müxtəlif variantlar axtarmağa başlamışdır?

Rusiyanın "soyuq müharibə"dən sonrakı davranışının realist təhlili liberal analitiklərin tənqidləri ilə qarşılanır. ABŞ-ın Dartmut Kollecinin professorları Bruks və Uolforts realist yanaşma tərəfdarlarının bəzi böyük dövlətlərin ABŞ-ın əsas düşmənlərinə dəstəyini "yumşaq balans" kimi qiymətləndirdiklərini qeyd edərək, bu baxımdan İran-Rusiya münasibətlərini bariz nümunə hesab edirlər. Lakin onların fikrincə, İran və Rusiya arasında əməkdaşlıq dünyada tarazlıq yaratmaq cəhdi sayılmamalıdır. Bruks və Uolfortsa görə, Amerikaya qarşı çıxmaqdan əlavə, Rusiya və İran arasında yaxşı əlaqələrin qurulmasının bir çox başqa səbəbi mövcuddur: "Nüvə sövdələşməsi, texnologiyanın ötürülməsi və İranı gücləndirən digər tədbirlər Moskvanın dini radikalizmə qarşı mübarizə, enerji və Xəzər dənizinin təbii ehtiyatlarından istifadə kimi bir sıra regional problemlərin həllində İranla əməkdaşlıq ehtiyacından qaynaqlanan strategiyasının bir hissəsidir".

Nüvə əməkdaşlığı məsələsinə gəlincə, Bruks və Uolforts iddia edirlər ki, Rusiya praqmatik yanaşmadan istifadə edərək səylərini əlverişli ikitərəfli iqtisadi və ticari əlaqələrin inkişafına, habelə özünün İranın nüvə bazarındakı mövqeyini möhkəmləndirməyə yönəltmiş və bu hərəkətlərdən böyük fayda əldə etmişdir. Bununla yanaşı, Rusiya İranın nüvə proqramı ilə bağlı ardıcıl siyasət yürüdür və Moskvanın rəsmi mövqeyi bundan ibarətdir ki, iyirmi birinci əsrdə kütləvi qırğın silahlarının yayılması əsas təhlükədir (1, s.88). Lakin Bruks və Uolfortsun İran və Rusiya arasındakı münasibətləri başa düşmək üçün diqqəti yönəltdikləri "iqtisadi maraqlar" və "regional təhlükəsizlik" anlayışları da "yumşaq balans" anlayışı kimi tarixi faktlara əsaslanaraq müzakirə edilə bilər. Bir çox hadisələr göstərir ki, iqtisadi maraqlar heç vaxt - ən azı İrana aid məsələlərdə Rusiyanın xarici siyasətində yeganə məqsəd olmamışdır. Bir çox ekspert əmindir ki, Rusiya ilə İran arasındakı münasibətlərdə iqtisadi fayda müəyyənedici göstərici deyildir. İkitərəfli iqtisadi mübadilənin aşağı səviyyəsini nəzərə alsaq, İran bazarını itirəcəyi təqdirdə Rusiyanın maddi zərəri Rusiya iqtisadiyyatına cüzi təsir göstərə bilər (2).

Nüvə enerjisi sahəsində Rusiya başa düşürdü ki, əgər Buşəhr elektrik stansiyası layihəsi yaxın müddətdə başa çatdırılsa, İranın onunla yeni müqavilələr bağlaması ehtimalı yüksəkdir. Lakin hətta bu stimul da Rusiyanı Buşəhr elektrik stansiyası layihəsini vaxtında başa çatdırmağa sövq etmədi. Hərbi sahədə də İran Rusiyadan yeni və daha bahalı silahlar almağa hazır idi, lakin Moskva İrana bəzi müdafiə silahlarını satmaqla kifayətləndi. Beləliklə, İran və Rusiya arasındakı münasibətlərə dair yuxarıda göstərilən fikirlər əsasında bu əlaqələrin materialist zəminə söykəndiyini iddia etmək olar. Başqa sözlə, bütün bu konsepsiyalar (istər realist, istər liberal) İran və Rusiya arasındakı münasibətlərin yaxşılaşmasının səbəblərini obyektiv təhdidlər, iqtisadi fayda və nüfuzu artırmaq istəyi kimi maddi amillər sırasında axtarır (15, s.610-614).

Əslində, rasionalist yanaşma maddi amillərə diqqət yetirdiyi üçün dövlətlərin özünəməxsusluğuna əhəmiyyət vermir və onların hamısını bərabər oyunçu hesab edir. Bu baxımdan dövlətlər arasında yalnız hakimiyyət, geosiyasət və idarəetmə forması kimi məsələlərdə fərq mövcuddur. Onlar hamısı oxşar maraqlara (yaşamaq, rifah və s.) və davranışa (özünümüdafiə, həmrəylik və s.) malikdir. Halbuki konstruktivizm nəzəriyyəsi ölkələrin milli məqsədlərinin və xarici siyasətinin müəyyənləşdirilməsində qeyri-maddi strukturların əhəmiyyətini və identikliyin rolunu xüsusi nəzərə alan nəzəriyyələrdən biridir.

Konstruktivizm beynəlxalq münasibətlərin "sosial quruluş"a çevrilməsinin mümkünlüyünü iddia edir. Bu sahədə aparıcı alimlərdən olan Aleksandr Vendt göstərir: "...Sosial konstruktivizm

nəzəriyyəsinin təməl prinsipi insanların aktorlara və obyektlərə münasibətdə bu obyektlər və aktorlar haqqında biliklərinə əsaslanaraq davranmasıdır" (13, s.396-397).

Konstruktivizm maddi imkanların insan həyatı üçün onların əhəmiyyətini müəyyən edən sosial konsepsiyalar vasitəsilə başa düşülməsini təklif edir. Konstruktivizmə uyğun olaraq, maraq tarixi, mədəni, siyasi və sosial keçmişdən asılı olan dövlət identikliyi ilə müəyyən edilir. Hərbi güc balansı kimi maddi imkanların dövlətlərin davranışına düz mütənasib təsir göstərməsində israr edən realistlərin əksinə olaraq, konstruktivistlər "ortaq fikir və dəyərlər sistemlərinin dövlətlərin davranışına birbaşa təsir edən struktur xüsusiyyətlərinə sahib olduğunu" vurğulayırlar. Bu nəzəriyyə realizm və liberalizm nəzəriyyələrinin müddəalarını rədd edərək, mentallığın, identikliyin formalaşmasına, aktorların və strukturların maraqlarının və qarşılıqlı əlaqəsinin vacibliyinə xüsusi diqqət yetirir. Rasional hesabları və obyektiv maraqları dövlətlərin xarici siyasətinin mənbəyi hesab edən rasional nəzəriyyələrin əksinə olaraq, bu nəzəriyyədə dövlətin məqsədləri inanclar, ideallar, milli identiklik, milli suverenlik və milli birlik kimi normalardan və milli dəyərlərdən asılıdır. Normaların maraqlardan üstün olması səbəbindən dövlətlər öz davranışlarında normaları görməməzliyə vura və öz məqsədlərinə çatmaq üçün hər hansı tədbirə əl ata bilməz (7, s.5). Konstruktivizm nəzəriyyəsində struktur və agent bir-birinə qarşılıqlı təsir göstərir. Hökumətlərin (agentlərin) hərəkətləri beynəlxalq strukturların qurulmasına təsir göstərir və buna görə də beynəlxalq strukturlar agentlər və ya hökumətlər üçün qarşılıqlı surətdə faydalıdır (4, s.303).

Konstruktivizm nəzəriyyəsinin əsas müddəası beynəlxalq siyasəti rasional davranış və maddi xərclər çərçivəsində zəiflətməyin mümkün olmadığına əsaslanır, çünki dövlətlərin qarşılıqlı münasibətləri bir sıra sabit milli maraqlar əsasında deyil, zaman keçdikcə münasibət şablonu şəklində identiklik vasitəsilə formalaşır (4, s.303).

Beləliklə, Aleksandr Vendtə görə, konstruktivist yanaşma aşağıdakılara əsaslanır:

1) dövlətlər beynəlxalq siyasət nəzəriyyəsində əsas təhlil predmetidir;

2) dövlətlərin identikliyi və maraqları onların sosial strukturları vasitəsilə və onların qarşılıqlı təsir prosesi zamanı qurulur;

3) struktur və aktor bir-birinə qarşılıqlı təsir göstərir (19, s.662).

Buna əsaslanaraq, konstruktivizm nəzəriyyəsində bütün insan əməlləri sosial sahədə formalaşır və məna kəsb edir. Dövlətlər arasındakı münasibətlər onların bir-birinə bağlılığı anlayışına əsaslanır, identiklik isə özümüzü və başqalarından gözləntilərimizi dərk etmək deməkdir (18, s.549-590). Məsələn, Qacar və Pəhləvi sülalələrinin hakimiyyəti dövründə Rusiyanın hərbi qüdrətinin artması İran üçün təhlükə sayılırdı, lakin 1979-cu ildə İslam İnqilabından sonrakı dövrdə İranla ABŞ arasındakı ziddiyyətlər İran İslam Respublikasının Rusiya ilə münasibətlər qurmasına ehtiyac yaratdı.

Nəticə etibarilə, konstruktivizm nəzəriyyəsində dövlət sosial aktordur, onun identikliyi və maraqları isə əvvəlcədən müəyyənləşdirilmir. Dövlət sosial qaydalar çərçivəsində hərəkət edir, burada həm daxili sistem, həm də onun identikliyini formalaşdıran beynəlxalq qayda və normalar sistemi öz təsirini göstərir. Başqa sözlə, bir-biri ilə qarşılıqlı fəaliyyət müddətində aktorlar özlərinin və başqalarının identikliyini öyrənir, öz hərəkətlərinə və başqalarının hərəkətlərinə verdikləri mənaya əsaslanaraq özlərini başqalarına münasibətdə müəyyənləşdirirlər.

Digər tərəfdən, eyniləşdirmə iki növ ola bilər: mənfi və ya müsbət. Mənfi eyniləşdirmədə "özü" və "başqası" fərqli və təhdid edən anlayışlar sayılır, buna görə də onların münasibətləri fikir ayrılığı və daimi müharibə ehtimalı ilə müşayiət olunur. Müsbət eyniləşdirmədə "başqası" bənzər görünür və "özü"nü təhdid etmir, nəticədə müharibə ehtimalı istisna olunur (8, s.27-47).

Konstruktivistlərin fikrincə, hətta "təhdid məsələsi" də subyektiv fenomendir. Təhdid, təhdid amili ilə təhdid sahəsi arasındakı əlaqəyə əsaslanır. Bunun əsasında fikirlər, düşüncələr, açıqlamalar təhdid yaradır. Nəticə olaraq düşüncələrin, fikirlərin və anlayışların dəyişməsi ilə təhdidlər ya dəyişir, ya da məhv olur.

Aleksandr Vendt qeyd edir ki, sırf materialist yanaşma beynəlxalq münasibətlərin bir çox faktını izah edə bilməz. Məsələn, ABŞ Böyük Britaniyanın 500 nüvə raketini nəyə görə öz təhlükəsizliyi üçün Şimali Koreyanın 5 nüvə raketindən daha az təhdid hesab edir? Aydındır ki, Şimali Koreya-

nın açıq düşmənçiliyi ilə müqayisədə Birləşmiş Krallığın ABŞ-la mehriban münasibətləri sırf maddi baxımdan qəbul edilmir. Bu ölkələr arasındakı fərq bir çox Amerika liderinin şimali koreyalıların ingilislərə nisbətən ABŞ-a qarşı təcavüzə daha çox meyl etmələri ilə əlaqəli mühakiməsidir. Bu inam tarixin, davranışın və ifadələrin şərhinə əsaslanır, Şimali Koreya ilə müharibənin Böyük Britaniya ilə müharibədən daha çox ehtimal olunduğunu və bu vəziyyətin nüvə silahına sahib ölkələrə cavab olaraq fərqli siyasi strategiyalara yol açdığını göstərir (14, s.73).

Amerika Birləşmiş Ştatları İsrailin yüzlərlə nüvə başlığından və ya Pakistanın atom bombasından da qorxmur, çünki Amerika siyasətçilərinin düşüncəsində bu ölkələr dost hesab olunur, lakin ABŞ tərəfindən İranın nüvə silahına malik olması milli təhlükəsizliyə təhdid kimi qiymətləndirilir. Beləliklə, dövlətlərin xarici siyasət davranışındakı fərq onların normanı qavramalarındakı fərqdən asılıdır. Onların davranışlarının oxşarlığı anarxist beynəlxalq sistemdə təhlükəsizlik anlayışından irəli gələn ehtiyacların nəticəsidir. Nəticədə, hər hansı bir ölkənin xarici siyasətini yalnız müəyyən davranışı müəyyən edən daxili normaları öyrəndikdə təxmin etmək mümkün olacaqdır (5).

Konstruktivistlərin fikrincə, məhz normalar identikliyi müəyyən edir, maraqları isə identiklik müəyyən edir. Buna görə də normaların identikliyə necə təsir etdiyini öyrəndikdən sonra hər hansı bir ölkənin xarici siyasətinin fəaliyyət göstərməsi üçün əsas olan milli maraq anlayışını başa düşə bilərik. Bu modelə görə, bunlar dövlətlərin maraqlarını və məqsədlərini müəyyən edən normalardır (17, s.22-24).

Beləliklə, xarici siyasətin idarə edilməsində maddi amillərin rolunu nəzərə alan konstruktivizm yanaşması subyektiv və qeyri-maddi amillərin rolunu prioritet hesab edir. Konstruktivizmin ən vacib müddəaları aşağıdakı kimi təqdim edilə bilər:

1. Dünya mühiti (dünya siyasəti) yalnız maddi amillərlə məhdudlaşmır, intellektual amillər və normalar böyük əhəmiyyət daşıyır;
2. Dövlətlərin xarakterik xüsusiyyətləri onların qarşılıqlı təsirinin nəticəsidir, dövlətlər sabit və əvvəlcədən formalaşmış keyfiyyətlərə malik deyildir;
3. İdentiklik və maraqlar əvvəlcədən verilmir, onlar sosial qarşılıqlı əlaqənin nəticəsidir və beynəlxalq qarşılıqlı əlaqələrdə dəyişir.

Tədqiqatımızın nəzəri əsası realizm və ya liberalizm nəzəriyyəsindən daha çox fikir və diskursların öyrənilməsində konstruktivizm nəzəriyyəsidir, çünki beynəlxalq münasibətlərə konstruktivist yanaşma diqqəti ideyanın və sosial identikliyin ölkələrin xarici siyasətinə təsiri kimi amillər üzərində cəmləşdirir. Bundan əlavə, dövlətlərin identikliyinin formalaşmasında tarixi proseslərin əhəmiyyəti nəzərə alınır. Bu işdə Rusiya ilə İranın bir-biri ilə münasibətləri bir-biri, digər ölkələr haqqında təsəvvürləri, habelə identikliyin və maraqların anlayışı əsasında qurduğu ehtimal edilir. Bu təsəvvürlər və maraqlar əvvəlcədən müəyyənləşdirilmir, ictimai və tarixi inkişaf prosesində formalaşır.

Beləliklə, İran və Rusiya arasındakı münasibətləri ictimai baxımdan formalaşan münasibətlər kimi müəyyən etmək mümkündür, onlara daxili və tarixi amillərin məcmusu, eləcə də xarici amillər böyük təsir göstərir. Rusiya və İranın xarici siyasətinin tədqiqi zamanı identikliyin formalaşmasında ictimai, mədəni və dini amillərin rolu nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT

1. Brooks, S. G & Wolfforth, W. C. Hard Times for Soft Balancing / International Security.- 2005.- Vol. 30.- №1.
2. Harvey, C. & Sabatini R. Russia's lukewarm support for international sanctions against Iran: history and motivations / Building a Safer World (NTI). - 2010. - Available at: http://www.nti.org/analysis/articles/russias-support-sanctions-against-iran.
3. Hopf, T. Understandings of Russian Foreign Policy / T. Hopf //Pennsylvania: Penn State Press, 1999.

4. Hurd, I. Constructivism/I. Hurd//Reus-Smit, C., Snidal, D. the oxford handbook of international relations. Oxford: Oxford University Press, 2008.

5. Moshirzadeh, H. Domestic Ideational Sources of Iran's Foreign Policy / H. Moshirzadeh // Iranian Review of Foreign Affairs. – 2010. – Vol. 1. – №1.

6. Pape, R.A. Soft balancing against the United States / R.A. Pape // International Security. – 2005. – № 1.

7. Riss, T. Lets Argue: Communicative Action in World Politics/T.Riss//International Organization.2000.№ 1(54).

8. Rumelili, B. Constructing Identity and Relating to Difference: Understanding the EU's Mode of Differentiation//Review of International Studies, Vol. 30, No. 1 (Jan., 2004).

9. Tabarani, G.G. How Iran Plans to Fight America and Dominate the Middle East / G.G. Tabarani. – USA: Authour House, 2008.

10. Walt, S.M. Can the United States Be Balanced? If So, How Prepared // for delivery at the 2004 Annual Meeting of the American Political Science Association / S.M. Walt.

11. Walt, S.M. Taming American power: the global response to US primacy / S.M. Walt // N. Y.: Norton, 2005.

12. Waltz, K .Structural Realism after the Cold War / K. Waltz // International Security. 2000. Vol. 25. № 1.

13. Wendt, A. Anarchy is what states make of it: the social construction of power politics / A. Wendt // International Organization.–1992.–Vol.12.№ 2.

14. Wendt, A. Constructing International Politics / A. Wendt // International Security. – 1995. – № 20.

15. شوری، محمود. ایران و روسیه: از موازنه قدرت تا مسئله هویت/ محمود. شوری // تهران: فصلنامه روابط خارجي . -.2010 شماره .

Шури, М. Иран и Россия: от равновесия сил до вопроса идентичности / М. Шури //ж-л. Международные отношения. – Тегеран. – № 2. – С. 668. (Дана в переводе с фарси).

Шури, М. Иран и Россия: анализ дискурса и роль Запада / М. Шури. – Тегеран: Исламский ун-т Азад, 2010. – С.230 – 231. (Дана в переводе с фарси).

16. شوری، محمود.ایران و روسیه: واکاوی گفتمانها و نقش غرب / محمود، شوری - تهران: دانشگاه آزاد اسلامي ، 2010.

17. قهرمانپور، رحمان. تحلیل تکوین گرایانه سیاست خارجي ج.ا. ایران/ رحمان. قهرمانپور // تهران: فصلنامه مطالعات راهبردی .- -.6009 شماره .4.

Хараманпор, Р. Анализ внешней политики Ирана с точки зрения конструктивизма / Р. Хараманпор // Журнал стратегических исследований. – Тегеран. – 2005. – №3. –С.73. (Дана в переводе с фарси)

18. هادیان، ناصر. سازه انگاری: از روابط بین الملل تا سیاست خارجي / ناصر. هادیان // تهران: فصلنامه سیاست خارجي .- - .2004 شماره۴.

19. ونت، الکساندر. نظریه اجتمتعي سیاست بین الملل / الکساندر، ونت. ترجمه به فارسي حمیرا مشیرزاده – تهران: دفتر مطالعات سیاسي و بین المللي وزارت خارجه ایران، -.6002 ص.

## *РЕЗЮМЕ*

***Алимуса Ибрагимов***

***Общая характеристика основных концептуальных подходов к изучению ирано-российских отношений***

***Ключевые слова:*** *Иран, Россия, США, концепция, теория*

В статье рассматриваются ключевые концептуальные подходы к изучению ирано-российских отношений в современную эпоху. Автор дает представляет общую характеристику основных теорий ирано-российских отношений. Особое внимание уделяется недавним изменениям в отношениях Ирана с Россией.



## *SUMMARY*

***Alimusa İbrahimov***

***General characteristics of the main conceptual approaches to the study of Iranian-Russian relations***

***Keywords:*** *Iran, Russia, the USA, concept, theory*

The article discusses the key conceptual approaches to the study of Iranian-Russian relations in the modern era. The author gives a general description of the basic theories of Iranian-Russian relations. Particular attention is paid to recent changes in Iran's relations with Russia**.**